Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**İLHAM RƏHİMLİ**

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

## ÜÇ CİLDDƏ

# I CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2016

**CƏMİL ƏMİROV**
*(1875, Şuşa – 1928, Gəncə).*
*Musiqi xadimi, tarzən, bəstəkar.*

Məşhur bəstəkar, SSRİ xalq artisti Fikrət Əmirovun atasıdır. Cəmil (Məşədi Cəmil) Əmiraslan oğlu Əmirov ilk musiqi təhsilini Şuşada Mir Möhsün Nəvvabdan alıb. 1911 – 1913-cü illərdə İstanbulda Avropa və Şərq bəstəkarlıq tarixini öyrənib. 1914 – 1925-ci illərdə Gəncə teatr prosesinin canlanmasında mühüm işlər görüb. «Seyfəlmülk» operasını yazıb. Əsər 1916-cı ildə Sidqi Ruhullanın rejissorluğu ilə Gəncədə oynanılıb. «Namuslu qız» musiqili dramı var. Gəncə teatr həvəskarlarının ifa etdikləri opera və operettaların əksəriyyətinin musiqi rəhbəri olub.

Cəmil Əmirov Riqanın «Qrammofon» şirkətində Azərbaycan sənətkarları ilə birlikdə milli musiqimizi vallara yazdırıb. Şuşada, Gəncədə, Tiflisdə, İrəvanda göstərilən Üzeyir bəy Hacıbəylinin «Leyli və Məcnun» (Məcnun), «Əsli və Kərəm» (Kərəm), zülfüqar bəy Hacıbəylinin «Aşıq Qərib» (Aşıq Qərib) operalarında əsas partiyaları oxuyub. «Heyratı» muğamını nota salıb və çap etdirib. Gəncə Musiqi Məktəbinin təşkilatçılarındandır, bu təhsil ocağında müəllim və direktor işləyib.